10.61764/lasr.1.2023.16-21

**UOT 32**

**Faiq Əliyev**
*Azərbaycan Neft və Sənaye Universiteti,*
*tar. f. d., dosent*

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ EKOLOJİ TARAZLIĞIN QORUNMASI PRİORİTET MƏSƏLƏLƏRDƏN BİRİ KİMİ

*Məqalədə bildirilir ki, Ermənistan Respublikası 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində təbiətə amansız zərbələr vurmuş, ekosistemi məhv etmişdir. Çaylar çirklənmiş, meşələr qırılmış, yaşıllıqlar məhv edilmiş, parklar, bağlar dağıdılmış, sərvətlər talan edilmişdir. Qeyd olunur ki, şanlı qələbə nəticəsində torpaqlar işğaldan azad edilmiş, meşələr salınmağa başlamış, öz ərazisində ekoloji tarazlığı qoruyub saxlamaq üçün Azərbaycan lazımı tədbirlər görməyə başlamışdır. Bu prosesi uğurla həyata keçirmək üçün bu işə mütəxəssislər cəlb olunmuşdur. Qarabağın ekoloji turizm məkanına çevrilməsi üçün zəruri fəaliyyət planı hazırlanmış, dövlət proqramları həyata keçirilməyə başlanmışdır.*

***Açar sözlər:*** *işğal, ekosistem, erməni vandalizmi, meşələrin qırılması, çaylar çirklənməsi, qələbə, yeni parklar, turizm məkanı, inkişaf, birgə fəaliyyət*

**Giriş.** XXI əsrin əsas problemlərindən biri də ekoloji tarazlığın qorunmasıdır.Bunun üçün bəzi təxirəsalınmaz məsələlər öz həllini tapamlıdır. Buraya təbii resursların intensiv istismarının, neft-qaz və kömür hasilatının məhdudlaşdırılması, bərpaolunan enerji növlərinə, yaşıl və mavi iqtisadiyyata üstünlük verilməsi, su ehtiyatlarının səmərəli istifadəsi, karbon qazının həcminin azaldılması, təkrar emal və digər məsələlər daxildir. 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğalda saxlanılan Azərbaycan ərazilərində ekoloji mühitdən söz açmaq belə mümkün deyil. Belə ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanın deyil, ümumilikdə bölgənin təbii ekoloji mühitini təhlükə altına alınıb.

Qlobal iqlim dəyişikliyi, torpaqların səhralaşması proseslərini və təmiz içməli su çatışmazlığını nəzərə alsaq, bu gün ekologiya bütün dünya ictimaiyyətini narahat edən əsas məsələlərdən biridir. Bununla bağlı BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədləri sırasında mühüm nüanslar öz əksini tapıb. Daha dəqiq desək, məqsəd 6 su ehtiyatlarından səmərəli istifadənin və su təchizatı, sanitariya və gigiyenaya çıxışın zəruriliyindən, məqsəd 13 iqlim dəyişikliyinə qarşı mübarizədən, məqsəd 15 isə quru ekosistemlərinin qorunması və bərpa edilməsinin, meşələrdən səmərəli istifadənin, səhralaşmaya qarşı mübarizənin, habelə torpaqların deqradasiyasının dayandırılmasının zəruriliyindən bəhs edir (1).

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən, ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə Əməliyyat Qərargahları yaradılmışdır. Bu qərargahlarda tanınımış mütəxəssislər, QHT nümayəndələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları fəaliyyət göstərirlər. Bu Əməliyyat Qərargahlarında fəaliyyət göstərən mütəxəssislər tərəfindən Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlanılmış və müxtəlif nəticələr əldə edilmişdir.

10.61764/lasr.1.2023.16-21

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyət" adlı hesabatında da ayrıca bir fəsil işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə həsr olunub.

Qeyd etmək zəruridir ki, şanlı qələbəmiz ilə Vətən müharibəsinin başa çatması torpaqlarımızın işğaldan azad edilməsi ilə bərabər təcavüzkar Ermənistan Respublikasının torpaqlarımızda apardığı amansız ekoloji terror aktlarına və talanlarına da son qoymuş oldu. Belə ki, 30 il ərzində erməni vandalları qeyri-qanuni əməllər törətmiş, təbii ehtiyatları kütləvi şəkildə istismar etmiş, şəhərlərimizdə, kəndlərimizdə dağıntılar törətmiş, meşələr qırılmış, yandırılmış, fauna və floraya zərbə vurulmuş, biomüxtəliflik məhv edilmiş, çaylar qurudulmuş, ekoloji vəziyyət gərginləşmiş, ekosistem çirklənmiş, yaşıllıqlar, zəngin təbiət ehtiyatları məhv edilmiş, ekoloji tarazlıq pozulmuş, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlar yaranmış, təbiətə amansız divan tutulmuşdur. Azərbaycanın təbiəti üçün xarakterik olan landşaftlar, yüzillik ağaclar, bitki örtüyü, çəmənliklər, yamaclar, şəlalələr, təbii mağaralar, mədəni park nümunələri,bağlar, unikal geoloji çıxıntılar, qayalar, paleontoloji laylar da məhv edilmişdir. İşğal edilmiş ərazilərdəki 260 min hektara yaxın meşə ərazisindən bir necə min hektar ərazi qalmışdır. Ermənistan qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaları, o cümlədən, "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasını kobudcasına pozaraq işğal etdiyi ərazilərdə ekosistemi məhv etmişdir. Mütəxəssis hesablamalarına görə, təbiətə, ekologiyaya dəyən ziyanın həcmi 244 milyard ABŞ dollarını ötmüşdür.

Avropa Şurası Parlament Assambleyasının 2016-cı ilin yanvarında qəbul etdiyi 2085 saylı qətnaməsində Ermənistan rəhbərliyini su resurslarından siyasi təsir vasitəsi kimi istifadə etməməyə də çağırsa da bu çağırışa məhəl qoyulmamışdır. Qətnamədə bildirilirdi ki, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik rayonlarını işğal altında saxlaması nəticəsində Azərbaycanın Aşağı Qarabağda yaşayan vətəndaşları üçün ekoloji və humanitar problemlər yaranıb. Ermənistanın həyata keçirdiyi ekoloji cinayətləri "Azercosmos"un peyk şəkilləri də sübut edir.

Müharibə dövründə ermənilər qadağan olunmuş fosfor bombalarından istifadə etməklə həmin ərazidəki bütün bitki örtüyünü məhv edib. Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində, təxminən 110 min hektar ərazi sıradan çıxıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışında bu məsələyə toxunaraq bildirmişdi ki, Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Göründüyü kimi, Ermənistanın həyata keçirdiyi terror siyasəti yalnız şəhərləri, kəndləri və ya orada yaşayan insanları hədəfə almır, həm də ekoloji tarazlığın pozulmasına yönəlib. Bu isə olduqca təhlükəli bir amildir. 44 günlük Vətən müharibəsində məğlub olan Ermənistan həm də bu hərəkətinə görə, beynəlxalq qanunlar qarşısında cavab verməlidir. Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş 6 yanvar 2021-ci il tarixli müşavirədə bildirib ki, bu ərazilərdəki təbii sərvətlərin qeyri-qanuni istismar edildiyi danılmaz faktdır. Bizim əlimizdə şirkətlərin adları var. Qeyd etməliyəm ki, əgər qızıl və digər yataqlarımızı qeyri-qanuni istismar edən bu şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə veriləcək, orada isə onları biabırçılıq gözləyir.(2)

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyət" adlı hesabatında işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə həsr

olunmuş ayrıca bir fəsil vardır. Hesabatda bildirilir ki, beynəlxalq hüquq istənilən hərbi işğalı öz xarakterinə görə "müvəqqəti işğal" kimi təsnif edir və işğalçı ölkənin işğal edilmiş ərazi üzərində suverenlik əldə etməsini nəzərdə tutmur, buna görə də işğal faktı ilə əlaqədar həmin ərazinin hüquqi statusu dəyişmir.

İşğaldan azad edilmiş ərazilərimizdə 42 min hektardan çox sahəsi olan xüsusi mühafizə olunan təbii ərazi – 2 dövlət qoruğu və 4 dövlət yasaqlığı yerləşir. Bu qoruq və yasaqlıqlar tamamilə ermənilər tərəfindən məhv edilib. Son 5 ildə əgər Ermənistan ərazisində 175 min kubmetr meşə məhv olubsa, Dağlıq Qarabağda isə bu rəqəm 404,8 min kubmetrdir. Təkcə 2017-ci ildə Qarabağda 102 488 kubmetr meşə qırılıb. 2012-2016-cı illəri əhatə edən dövrdə də Qarabağda meşələrin qırılmasının həcmi Ermənistandakından 2,3 dəfə yüksək olmuşdur(2). Ermənilərin törətdiyi yanğınlar nəticəsində təbiətə misilsiz ziyan dəymiş, meşə örtüyü tamamilə yanıb kül olmuşdur. Bitki və kollarlla bərabər canlı orqanizmlər də məhv edilmişdir. Üzümlük sahələri qırılmış və beton dirəklərdən hərbi məqsədlə mühəndis istehkam işləri üçün istifadə edilib. İnfrastrukturun qəsdən məhv edilib yandırılması Rusiya, Azərbaycan və Ermənistan liderlərinin hərbi əməliyyatların tamamilə dayandırılmasına dair 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişə nail olmasından sonra da davam etmişdir.

Müharibənin gedişində ermənilər beynəlxalq səviyyədə tətbiqi qadağan olunan ağ fosforlu mərmilərdən istifadə etmişlər. Bu silahın çox ağır fəsadlarının olması hamıya məlumdur. Belə ki, silahın tətbiqi zamanı ətraf zəhərlənir, təhlükəli yanıq izləri qalır və güclü yanğınlar baş verir. Hərbi əməliyyatlar zamanı ermənilərin belə silahdan istifadə etməsi Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən aşkar edilmişdir.

6426 km uzunluğunda suvarma kanalları şəbəkəsi, 185 km uzunluğunda kollektor və drenaj kanalları, 1429 artezian quyusu, 539 hidrotexniki tikinti obyekti, 220 su elektrik stansiyası, 88 nasos stansiyası, habelə ümumi həcmi 640 milyon $m^3$ olan 8 su anbarı uzun illər ərzində işğal altında olub.

Həmçinin əvvəllər ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 10 su anbarı, o cümlədən Tərtər çayı üzərində yerləşən Sərsəng su anbarı (hazırda Rusiya sülhməramlılarının məsuliyyəti zonasındadır) yerləşir. 500 milyon kubmetr tutumu olan Sərsəng su anbarı Aşağı Qarabağ ərazisində 100 min hektar əkin sahəsinin suvarılması üçün nəzərdə tutulmuşdur. Bununla belə, o, uzun müddət texniki xidmətin göstərilməməsi səbəbindən qəza vəziyyətindədir ki, bu da regionun dağətəyi və mərkəzi Aran ərazilərində yaşayan 400 min sakin üçün təhlükə yaradır (3).

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü insan hüquqlarının və çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnib.

2020-ci il 10 noyabr sazişinin tələblərinə görə həmin il dekabrın 1-nə qədər Ağdam, Kəlbəcər, Laçın rayonları qeyri-qanuni olaraq burada məskunlaşmış erməni qəsbkarlarından təmizlənməli və onlar işğal altında olan həmin rayonları tərk etməli idilər. Erməni qəsbkarları ərazilərimizi tərk edərkən bütün əmlaklarını özləri ilə daşımışlar. Apara bilmədiklərini – evlərini, sahələri, avadanlıqları, meşələri, ağaclıqları yandırmış, ev heyvanlarını güllələməklə bar-barlığını bir daha dünyaya nümayiş etdirmişlər. Onların bu vandalizmi ilə Reuters, BBC, StraitTimes, Euronews, France24, РБК və bir çox digər KİV vasitəsilə bütün dünya bir daha tanış olmuşdur. “Azərbaycalılara hec nə qalmasın” deyən bu qəddar insanlar yüzlərlə arı pətəyinə od vurub yandırmışlar.

İşğaldakı ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən

həddindən artıq çirklənməyə məruz qalıb. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranıb.

Bəsitçay Dövlət Təbiət Qoruğundakı şərq çinarlarının bəzilərinin yaşı 1200-1500 ilə çatır, onların gövdələrinin diametri 4 m, hündürlüyü 54 m-dən yuxarıdır. Avropada analoqu olmayan bu nəhəng ağaclar işğalçılar tərəfindən qəddarlıqla məhv edilmişdir.Araz palıdını orada müvəqqəti məskunlaşmış ermənilər ilboyu yanacaq kimi istifadə etmişlər. Nəzarətdən kənarda qalmış, dünyada yalnız bu ərazidə bitən endemik bir növün kütləvi şəkildə doğranmasını ekoloji genosid kimi qiymətləndirmək olar.

İşğal altında olmuş torpaqlarda ermənilər Mesomor AES-dən gətirilmiş radioaktiv tullantıları basdırmaqla buraları zəhərləyəyərək istifadəyə mümkünsüz etmişlər. Belə tullantılar Ağdam rayonu ərazisində daha çox yerləşdirilib. Bu ərazilərdə olan 250 min hektar meşə sahəsi nüvə tullantıları ilə çirkləndirilib.

İşğal olunmuş ərazilərdən axan çayların ermənilər tərəfindən müxtəlif mənşəli tullantılarla və çirkab suları ilə çirkləndirilməsi faktları mövcuddur. Xonaşen, Qar-Qar çayı, Xaçınçayı, Tərtər çayı öz mənbələrini işğal olunmuş ərazilərdən götürür və həmin çaylara məişət tullantıları və çirkli sular axıdılıb.

Naxçıvan Muxtar Respublikasının təbii mühitində mühüm rol onayan Araz çayının ekoloji vəziyyəti daha acınacaqlıdır. Belə ki, Ermənistan tərəfindən Araz çayının uzun illər boyu çirkləndirilməsi, qiymətli balıq növlərinin kökünün kəsilməsinə və azalmasına səbəb olub. Əvvəllər qeydə alınmış 21 balıq növünün son 10-15 il ərzində məhv olması nəticə-sində 16 növə enməsi müəyyənləşdirilib (4). Artıq Vətən müharibəsindən ötən iki ildən çox müddətdə işğaldan azad edilən torpaqlarda xeyli işlər həyata keçirilib. Quruculuq-bərpa işləri ilə paralel olaraq, müxtəlif qurumlar tərəfindən monitorinq tədqiqat işləri də davam etdirilir. Xüsusilə vurğulamalıyıq ki, ötən dövrdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Medianın İnkişafı Agentliyinin təşəbbüsü ilə jurnalistlərin də azad edilmiş ərazilərə çoxsaylı səfərləri həyata keçirildi. Buradakı vəziyyəti əyani şəkildə müşahidə edən jurnalistlər Ermənistanın Qarabağda törətdiyi ekoloji terrorla bağlı aydın təsəvvürə malik oldular.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılıb. Bu fond işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirəcəkdir.

Torpaqları işğaldan azad etdikdən sonra Azərbaycan həmin ərazilərdə ekovəziyyəti yenidən bərpa etmək üçün də mühüm addımlar atmaqdadır. Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində, əsasən, Şərq çinarı olmaqla, minlərlə müxtəlif növ ağac əkilib, palıd və digər meşə ağaclarının toxumları səpilib. Ağacəkmə aksiyaları Qubadlıda, Cəbrayılda da davam etdirilməkdədir. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə ağacəkmə tədbirləri də davam etdirilir(5).

Yeni yaradılacaq milli parkların ərazisi də müəyyən edilib. Bunlar 20 min hektar Laçın rayonu, 20 min hektar Qubadlı rayonu, 107 hektar Bəsitçay qoruğu ərazisi, 2000 hektar Daşaltı dövlət təbiət qoruğu və Arazboyu təbiət yasaqlığının əraziləridir.

İşğaldan azad edilən ərazilərdə meşələrin bərpa olunması ilə yanaşı, ağacların kökləri və bitki örtüyü torpaq ehtiyatlarının qorunması, sürüşmələrin və eroziyanın qarşısının alınması, ağaclar həmçinin çay və çay sahil zonalarında suyun saxlanması, keyfiyyətinin qorunması, yeni ağaclıqların salınması, tinglərin əkilməsi kimi məsələlərə üstünlük verilir.

10.61764/lasr.1.2023.16-21

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də, məhz həmin ərazilərdə təbii və keyfiyyətli ekosistemin, bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu ərazilərdə müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin fəaliyyətinin bərpa edilməsi bütövlükdə regionun "yaşıl zona"ya çevrilməsinə şərait yaradacaqdır. Artıq işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması istiqamətində genişmiqyaslı tədbirlərə başlanılıb.

İşğaldan azad olunmuş ərazilərin, o cümlədən təbii sərvətlərimizin vəziyyətinin qiymətləndirilməsi və bərpa edilməsi istiqamətində görülən işlərə dövlətlə bərabər ictimai birliklərin, vətəndaş cəmiyyəti institutlarının da cəlb edilməsini nümunə kimi göstərmək olar. Belə ki, bu tədbirlərə gənc ekoloqların cəlb edilməsi məqsədilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" adlı birgə layihəyə start verilmişdir. Layihədə iştirak etmək hüququ qazanmış gənc mütəxəssislər bioloji müxtəliflik, geologiya, su ehtiyyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə üzrə qruplara bölünmüşlər. "Qarabağı qoru" şüarı altında həyata keçirilən layihənin gənc iştirakçıları ekoloji qiymətləndirilmə və monitorinq üzrə bilik və təcrübələrini artırmaq, eyni zamanada azad olunmuş ərazilərdə bərpa və mühafizə işlərinə töhfə vermək imkanı əldə etmişlər.

İnanırıq ki, həyata keçirilən məntiqli siyasət və birgə fəaliyyət nəticəsində tezliklə problemlər, təbiətə vurulan ziyan və zədələr aradan qaldırılacaq, beynəlxalq standartlara uyğun gələn yeniliklər tətbiq olunacaq və Qarabağ müasir ekoturizm məkanına cevriləcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Arslan A. İşğaldan sonra Qarabağ: ekoloji terrordan yaşıl dünyaya. https://modern.az/media/328427
2. az.president.az
3. https://story.karabakh.center/az/qarabagda-ekosid
4. Hüseynov H. İşğal dövrü ərzində təbiətə dəyən ziyan 244,4 milyard dollardır. "Xalq cəbhəsi" qəzeti, 21 fevral 2021-ci il
5. Sadayoğlu P. Qarabağın ekoloji vəziyyəti bərpa olunur. https://www.yeniazerbaycan.com/MEDIA_e72834_az.html


**Фаиг Алиев**

## СОХРАНЕНИЕ ЭКОЛОГИЧЕСКОГО РАВНОВЕСИЯ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД КАК ОДИН ИЗ ПРИОРИТЕТНЫХ ВОПРОСОВ

### *РЕЗЮМЕ*

В статье повествуется об осуществлении необходимых мер для охраны экологической безопасности. Заявлено о том, что данный вопрос находится под постоянным контролем руководства республики. Отмечается, что Республика Армения нанесла колоссальный урон природе территории Азербайджана, которую она держала в течение 30 лет под оккупацией, и уничтожила безразличие данной территории. Лесной массив и флора были уничтожены,

парки, сады разгромлены, природные богатства и ресурсы ограблены. Впоследствии Славной победы земли были полностью освобождены от оккупации, начаты работы по восстановлению лесных массивов, и Азербайджан принимает все необходимые меры для сохранения экологического равновесия на собственной территории.

***Ключевые слова:*** *экологическая безопасность, экологический террор, армянский вандализм, уничтожение лесных массивов, растительного покрова, новых парков и садов, флоры*

**Faig Aliyev**

## PROTECTION OF ECOLOGICAL BALANCE AS ONE OF THE PRIORITY ISSUES IN THE POST-WAR PERIOD

### *ABSTRACT*

Article is devoted to realizing of necessary measures for protection of ecological safety. It is indicated there that, this case is under constant control of the republican leadership. Moreover, it is noted there that, the Republic of Armenia has inflicted merciless blows on the nature and destroyed the biodiversity in the territories of Azerbaijan, which he kept under occupation for 30 years. Forests were cut down, greenery was destroyed, parks and gardens were destroyed, wealth was looted. As a result of the glorious victory, the lands were freed from occupation, forests began to be planted, and Azerbaijan began to take necessary measures to maintain the ecological balance in its territory.

***Keywords:*** *ecological safety, ecological terror, armenian vandalism, deforestation, destruction of vegetation, new parks and gardens, greenery*